*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 17 iyun 2020-ci il № 36 (2454) Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti müddətli həqiqi hərbi xidmətə çağırışla bağlı Sərəncam imzalayıb

*Prezident İlham Əliyev iyunun 11-də Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.*

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, 2002-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1985-2001-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2020-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılacaqlar.

Həmçinin "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2020-ci il iyulun 1-dən 30-dək ehtiyata buraxılacaqlar.

## Müdafiə Nazirliyinin BƏYANATI

*Azərbaycan Ordusunun 2016-cı və 2018-ci illərdə həyata keçirdiyi uğurlu döyüş əməliyyatları nəticəsində Ermənistanla Dağlıq Qarabağ ərazisini birləşdirən yollar tərəfimizdən nəzarətə götürülüb.*

Strateji cəhətdən əlverişli vəziyyətimiz düşməni xeyli vəsait xərcləyərək yeni yollar çəkməyə məcbur edir. Azərbaycan Ordusunun silahlanmada olan atəş vasitələri düşmənin bütün əməliyyat dərinliyindəki hərbi infrastrukturunu məhv etmək imkanına malikdir.

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Görülmüş bütün tədbirlərin mərkəzində məhz Azərbaycan vətəndaşlarının sağlamlığı dayanıb



*İyunun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə üç modul tipli xəstəxananın açılışı olub. Dövlətimizin başçısı görüşdə çıxış etdi.*

- Bu gün çox əlamətdar bir gündür. Ölkəmizdə modul tipli üç xəstəxana açılır. Bu xəstəxanalarda koronavirus xəstələri müalicə olunacaq və beləliklə, koronavirusla bağlı mübarizədə növbəti önəmli addım atılır.

Modul tipli birinci xəstəxana bir ay bundan əvvəl, mayın 7-də açılmışdır və hazırda bu xəstəxanaların sayı dördə çatıb. Mən mayın 7-də açılış mərasimində qeyd etdim ki, bu xəstəxanaların sayı 10-a çatmalıdır. Ümid edirəm ki, yaxın gələcəkdə - təxminən ayın sonuna qədər qalan 6 xəstəxana da istifadəyə veriləcəkdir. Beləliklə, bizim əlavə iki min çarpayımız olacaqdır və bu, koronavirusla bağlı mübarizədə imkanlarımızı daha da genişləndirəcək.

Sevindirici hal ondan ibarətdir ki, bu 10 xəstəxananın 4-nü özəl sektor öz vəsaiti hesabına inşa edəcək. Beləliklə, dövlətin üzərində yük bir qədər azalır. Özəl sektorun nümayəndələrinə və eyni zamanda, adi vətəndaşlara koronavirus dövründə göstərdikləri maliyyə dəstəyinə görə təşəkkürümü bildirmək istəyirəm. Bildiyiniz kimi, mənim təşəbbüsümlə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılıbdır və ilkin olaraq Prezidentin ehtiyat fondundan bu fonda 20 milyon manat vəsait ayrılmışdır. Ancaq bu gün sahibkarlar və adi vətəndaşlar hesabına fonda yığılmış məbləğ 100 milyon manatı ötüb. Bu, bir daha onu göstərir ki, xalqımız çətin dövrdə birləşə, həmrəylik və birlik göstərə bilir. Ona görə mən özəl sektorun bu işlərdə fəal rolunu dəstəkləyirəm. Eyni zamanda, ictimai təşkilatlar, ilk növbədə, Heydər Əliyev Fondu və digər ictimai təşkilatlar, sahibkarlar bu dövrdə maddi vəziyyəti aşağı olan insanlara humanitar yardım da göstərmişlər və bu proses davam edir. Amma hər kəs bilir ki, bu mübarizədə, əlbəttə ki, əsas yük Azərbaycan dövlətinin üzərinə düşür. Azərbaycan dövləti əlindən gələni edir ki, biz bu vəziyyətdən az itkilərlə çıxa bilək.

Görülmüş bütün tədbirlərin mərkəzində məhz Azərbaycan vətəndaşlarının sağlamlığı dayanmışdır və qabaqlayıcı tədbirlər nəticəsində bu gün vəziyyət tam nəzarət altındadır. Son 10 gün ərzində yoluxanların sayı artır. Bu da ondan irəli gəlir ki, yumşalma dövründə bəzi vətəndaşlar məsuliyyətsizlik göstərmişlər. Buna baxmayaraq, vəziyyət tam nəzarət altındadır. Bizim xəstəxanalarda kifayət qədər yerlərimiz var, reanimasiya şöbələrimizdə də həmçinin. Eyni zamanda, əlavə iki min çarpayılıq 10 xəstəxanada koronavirus xəstələrinin müalicəsi nəzərdə tutulur. Bu günə qədər hələ ki, buna ehtiyac yoxdur. Ancaq biz bütün addımlarımızı elə atırıq ki, ən kritik vəziyyətə hazır olaq, ən böhranlı vəziyyətdə də bütün xəstələrə tibbi xidmət göstərilsin.

Onu da bildirməliyəm, Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, koronavirusa yoluxan bütün xəstələr tibbi müəssisələrdə müalicə alır. Dünya praktikası tam başqadır. Bir çox ölkələrdə xəstəliyi simptomsuz keçirənlər, xəstəliyə düçar olmuş insanlar ev şəraitində müalicə alırlar, onları heç xəstəxanalara da qəbul etmirlər. Əlbəttə ki, bu, onların sağlamlığına təhlükə yaradır. Azərbaycanda koronavirusdan ölənlərin sayının az olmasının səbəblərindən biri də məhz odur ki, yoluxmuş bütün xəstələr tibbi müəssisələrə qəbul edilir və onlara lazımi xidmət göstərilir.

Qabaqlayıcı bütün tədbirlər elə görülüb ki, biz ən çətin vəziyyətə hazır olaq. Bu məqsədlə yeni laboratoriyalar alınıbdır. Hazırda laboratoriyaların sayı 20-dən çoxdur. Koronavirus xəstələrini müalicə etmək üçün bizim ən qabaqcıl xəstəxanalar ayrılıb, onlara təqdim edilib, o cümlədən "Yeni klinika" - bizim ən gözəl, ən müasir xəstəxanamız və digər xəstəxanalar. Bu xəstəxanaların sayı 20-dən çoxdur. Eyni zamanda, hesab edirəm ki, karantin şəraitində qalan vətəndaşlar üçün də dünya miqyasında Azərbaycanda xüsusi şərait yaradılıb. Çünki onlar 4-5 ulduzlu otellərdə, eyni zamanda, Atletlər Kəndində yerləşdirilir və karantin rejimində olan ən çox insan Atletlər Kəndində yerləşdirilibdir. Minlərlə insan xaricdən təxliyə edilib və bu proses davam etdirilir, təbii ki, qrafik üzrə. Orada da bütün işlər mütəşəkkil qaydada görülməlidir. Bildiyiniz kimi, xüsusi portal yaradılıb və Azərbaycana qayıtmaq istəyən vətəndaşlar o portalda qeydiyyatdan keçirlər, növbəlilik prinsipi əsasında dövlət hesabına ölkəmizə gətirilirlər.

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Görülmüş bütün tədbirlərin mərkəzində məhz Azərbaycan vətəndaşlarının sağlamlığı dayanıb

**(Əvvəli 1-ci səhifədə)**

Yəni, bütün şərait yaradılıb ki, Azərbaycan vətəndaşları dövlət tərəfindən qayğı ilə, diqqətlə əhatə olunsun. Hesab edirəm ki, bu günə qədər görülmüş işlər və işlərin nəticələri məhz bu siyasətin təzahürünü əks etdirir. Təsadüfi deyil ki, beynəlxalq aləmdə Azərbaycanın koronavirusla bağlı mübarizə metodları təqdirlə qarşılanır. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı bu sahədə nümunəvi ölkə adlandırıb, özü də bir neçə dəfə. Həm pandemiyanın ilk mərhələsində ki, biz operativ tədbirlər gördük, bütün lazımi məhdudlaşdırıcı addımları atdıq, həm də ondan sonrakı dövrdə və bu yaxınlarda yenə də Ümumdünya Səhiyyə Təşkilatının nümayəndələri Azərbaycanda görülmüş işləri çox yüksək qiymətləndirmişlər.

Bizim əsas vəzifəmiz insanları bu xəstəlikdən qorumaqdır, onların həyatını xilas etməkdir. Əlbəttə ki, itkilərimiz də olub, amma bəzi ölkələrlə müqayisədə Azərbaycandakı vəziyyət qat-qat yaxşıdır. Bu, onu göstərir ki, düşünülmüş siyasət, xalqla iqtidar arasında birlik, dövlətin addımlarına yüksək inam olan yerdə nəticə də olur. Bu günə qədər mən hər gün yüzlərlə vətəndaşdan məktub alıram. Bu məktublarda görülmüş işlərə yüksək qiymət verilir. Bu məktubların çox kiçik bir hissəsi mətbuatda dərc edilir. Ancaq o məktublar göstərir ki, bütün rayonlardan, bütün kateqoriyalara aid olan insanlardan bu məktublar gəlir və insanlar minnətdarlıqlarını bildirirlər. Eyni zamanda, məhdudlaşdırıcı dövr ərzində çətin vəziyyətə düşmüş vətəndaşların maddi məsələləri də həll olunubdur və Azərbaycan burada da liderlik göstəribdir. Ümumiyyətlə, mübarizəyə və pandemiyadan əziyyət çəkən işsiz adamlara, aztəminatlı təbəqəyə aid olan insanlara, sahibkarlara və bütün işləri təşkil etmək üçün 3,5 milyard manat vəsait nəzərdə tutulubdur və bu vəsait xərclənir. Tibbi avadanlığın, dərman preparatlarının alınması - bütün bu işlərə dövlət böyük vəsait ayırdı.

Eyni zamanda, mən bu işləri təşkil edən qurumların fəaliyyətini də yüksək qiymətləndirirəm. Operativ Qərargah, İcbari Tibbi Sığorta Agentliyi və TƏBİB fəal işləyirlər. Xüsusilə həkimlərin fəaliyyətini, fədakarlığını qiymətləndirmək istərdim. Azərbaycan xalqı həkimlərin fədakarlığına çox yüksək qiymət verir. Mən də bir daha bütün həkimlərə minnətdarlığımı bildirmək istəyirəm. Onlar öz həyatlarını risk altına atırlar. Onlar aylarla öz ailə üzvlərini görə bilmirlər və çox ağır şəraitdə xüsusi geyimlərdə gecə-gündüz xəstələrin yanındadırlar, onların həyatını xilas edirlər. Bizdə ölüm səviyyəsinin çox aşağı olması, ilk növbədə, həkimlərin peşəkarlığı, fədakarlığı hesabınadır.

Ona görə dünyada baş vermiş hadisələrə və bir çox inkişaf etmiş ölkələrdə koronavirusla bağlı acınacaqlı vəziyyətə baxdıqda bir daha görürük ki, Azərbaycan bu sahədə də öz modelini ortaya qoyub və bütün hədəflərə ardıcıllıqla, məqsədyönlü şəkildə çata bilib. Əlbəttə ki, mən bizi başqa ölkələrlə müqayisə etmək fikrində deyiləm. Ancaq dünyada hər şey müqayisə ilə ölçülür. Misal üçün bu günə qədər Azərbaycanda yoluxanların sayı 8 minə qədərdir, 350 mindən çox test keçirilib və adambaşına testlərin sayına görə biz qabaqcıl yerlərdəyik. Ancaq qonşu Ermənistanda yoluxanların sayı 13 mini ötüb və testlərin sayı bizdəkindən 5-6 dəfə azdır. Nəzərə alsaq ki, Ermənistan əhalisi Azərbaycan əhalisindən 5 dəfə azdır, mənzərə tam aydındır. Əgər mən gündə yüzlərlə təşəkkür məktubu alıramsa, Ermənistan rəhbərliyi yüzlərlə lənətlə dolu çağırışlar eşidir.

İnkişaf etmiş ölkələrlə digər müqayisəni də apara bilərəm. Məsələn, bir neçə inkişaf etmiş ölkə var ki, orada ölənlərin sayı bizdə yoluxanların sayından çoxdur. O inkişaf etmiş ölkələr ki, orada səhiyyə sistemi həmişə etalon, bir nümunə hesab edilib. Bəzi inkişaf etmiş ölkələrdə, o ölkələrdə ki, əhalisi bizimlə təxminən eynidir, on minə yaxın insan ölüb. Bizdə isə sadəcə yoluxanların sayı 8 minə qədərdir. Ona görə bizdəki yanaşma, - hər bir yoluxmuş insana tibbi xidmət göstərilir, - ən düzgün, ən humanist yanaşmadır və bu istiqamətdə əlavə addımlar atılacaq.

Biz, eyni zamanda, sənaye imkanlarımızdan da istifadə etdik. Qısa müddət ərzində tibbi maska müəssisələri fəaliyyətə başladı. İki müəssisə indi fəaliyyətdədir. Dezinfeksiya vasitələri artıq Azərbaycanda istehsal olunur. Eyni zamanda, Azərbaycanda həkimlər üçün xüsusi geyimlər, kombinezonlar istehsal olunur. Həmçinin biz tibbi maskaları xaricdən də idxal edirik. Çünki tələbat artır və tələbatın artması bilavasitə məhdudlaşdırıcı tədbirlərlə bağlıdır. Biz müşahidə edirik ki, vətəndaşlar son günlər tibbi maskalardan daha çox istifadə edirlər. Bir daha demək istəyirəm ki, bu, qapalı şəraitdə mütləqdir. Mən bütün qapalı yerlərdə tibbi maskadan istifadə edirəm və hər kəs də qapalı şəraitdə tibbi maskadan istifadə etməlidir - ictimai nəqliyyatda, ofislərdə, alış-veriş mərkəzlərində. Açıq havada bu, tövsiyə olunur, əgər yaxın təmas yoxdursa, maskadan istifadə etməmək də olar. Ancaq qapalı şəraitdə hər kəs mütləq maskadan istifadə etsin, hər kəs məsafə saxlasın və şəxsi gigiyenaya fikir versin. Çünki cəmi bu üç amil, - bunu həkimlər, müxtəlif ictimai xadimlər bəlkə də min dəfə deyiblər, - gərək nəzərə alınsın: tibbi maska, bir yarım-iki metr məsafə və dezinfeksiya vasitələri. Bu amillər insanları həkimlərin yekdil rəyinə görə, 95 faiz qoruyur. Ona görə vətəndaşlardan artıq dərəcədə xahiş edirəm ki, bu çox sadə qaydalara əməl etsinlər və bilsinlər ki, koronavirus yoxa çıxmayıb.

İndi bütün ölkələrdə yumşaldıcı addımlar atılır, o cümlədən Azərbaycanda. Buna baxmayaraq, mən onu da demişdim ki, əgər görsək xəstələrin sayı kəskin artır, yenə də məhdudlaşdıracağıq. Bu məhdudlaşdırıcı addımların səbəbi də bəllidir. Bəzi insanlar məsuliyyətsizlik göstərirlər. Ancaq bütövlükdə deyə bilərəm ki, Azərbaycan cəmiyyəti çox böyük məsuliyyət, nizam-intizam göstərir. Şənbə-bazar günlərində xüsusi karantin rejimi bunu göstərdi, qayda pozuntuları çox cüzi sayda olmuşdur. Bu, onu göstərir ki, vətəndaşlar məsuliyyəti dərk edirlər. Ancaq hər bir vətəndaş bunu dərk etməlidir. Çünki bir məsuliyyətsiz vətəndaş yüz nəfəri yoluxdura bilir, onların və özünün həyatını risk altına ata bilir.

Koronavirus yoxa çıxmayıb və yoxa çıxmayacaq. Həkimlərin ümumi rəyinə görə, peyvənd icad olunana qədər insanlar bu xəstəlikdən əziyyət çəkəcəklər. Ona görə biz də hazır olmalıyıq ki, yeni davranış qaydaları çərçivəsində yaşayaq. İndi bunun başqa yolu yoxdur. Bir daha demək istəyirəm ki, bu davranış qaydaları insanlara o qədər də əziyyət vermir. Sadəcə dediyim qaydalara əməl etmək və daha məsuliyyətli olmaq lazımdır.

Bu müddət ərzində Azərbaycan dövləti çox böyük məsuliyyət göstərib, ilk növbədə, ölkə daxilində. Çünki iki seçim var idi - ya iqtisadiyyatı xilas etmək, ya da insanların sağlamlığını. Şəxsən mənim üçün birmənalı qaydada tərəddüdsüz insanların sağlamlığı həmişə birinci yerdə olubdur, o cümlədən pandemiya dövründə. Ona görə biz şüurlu şəkildə, bunun iqtisadi fəallığımıza mənfi təsir göstərəcəyini bilərək məhdudlaşdırıcı addımlara getdik. Mən bildirmişdim ki, keçən ay əldə edilmiş nəticələrdə kiçik də olsa, artım var - 0,2 faiz. Ancaq təxmin edirdim ki, beş ayın yekunları artıq tənəzzülü əks etdirəcək, belə də oldu. Mənə verilən məlumata görə, ümumi daxili məhsul beş ayda 1,7 faiz aşağı düşüb. Ancaq yenə də bir çox inkişaf etmiş ölkələrlə müqayisədə bizdəki tənəzzül çox kiçikhəcmlidir. Bununla paralel olaraq bildirməliyəm ki, sənaye istehsalı bir qədər artıb. Amma qeyri-neft sektorunda sənaye 14 faiz artıb. Kənd təsərrüfatı 3,6 faiz artıb. İnsanların orta əməkhaqqı 740 manata yaxınlaşıb. Bu, təqribən 430 dollardan çoxdur. İnflyasiya 3 faizdən aşağıdır, yəni, proqnozlaşdırılmış səviyyədədir.

Ona görə bütövlükdə baxanda bizim iqtisadi fəaliyyətimiz də bu müddət ərzində çox uğurlu olub. Ancaq iqtisadiyyat tənəzzülə uğrasa da, bərpa ediləcəkdir, insanların həyatını isə bərpa etmək mümkün deyil. İnsanların həyatı qiymətsizdir. Ona görə bu günə qədər və bundan sonra bizim üçün əsas amil insanların təhlükəsizliyi, sağlamlığıdır. Artan dinamika, xəstələrin, yoluxanların artan dinamikası göstərir ki, yumşalma tendensiyası buna gətirib çıxarıb. Amma yenə də vəziyyət nəzarət altındadır. Burada əsas amil yoluxanların və sağalanların arasında olan nisbətdir. Bu günə qədər nisbət elədir ki, bizim səhiyyə sistemimiz bunu qəbul edə bilir. Bir çox ölkələrdə ölüm hallarının kütləvi xarakter almasının əsas səbəbi odur ki, o ölkələrdə səhiyyə sistemi çöküb. Yəni, xəstələri qəbul edə bilmirlər və beləliklə, kütləvi ölüm halları müşahidə edilir. Bu gün mövcud səhiyyə imkanlarımız bizə tam imkan verir ki, vəziyyət nəzarət altında qalsın. Ancaq hər kəs bilməlidir ki, bu vəziyyəti biz qorumalıyıq. Qorumalıyıq və müsbət meyillərin artırılmasına çalışmalıyıq və çalışırıq.

Beynəlxalq müstəvidəki rolumuza gəldikdə, bildiyiniz kimi, Azərbaycan özünü çox məsuliyyətli aparır. Mən qeyd etdim ki, ilk növbədə, ölkə daxilində və beynəlxalq arenada bizim təşəbbüsümüzlə iki Zirvə görüşü keçirilibdir: Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü və Qoşulmama Hərəkatının Zirvə görüşü. Bildirməliyəm ki, Qoşulmama Hərəkatının Zirvə görüşündə 120 ölkə təmsil olunub, eyni zamanda, Afrika İttifaqı buna qoşulub, o İttifaqda 55 ölkə cəmləşibdir. Avropa İttifaqı ilk dəfə olaraq Qoşulmama Hərəkatının tədbirinə yüksək səviyyədə və ümumiyyətlə, ilk dəfə qoşulmuşdur. Avropa İttifaqında 27 ölkə var. Düzdür, Afrika İttifaqının bəzi ölkələri, eyni zamanda, Qoşulmama Hərəkatının üzvləridir. Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan, deyə bilərəm ki, tam məsuliyyətlə dünyanı birləşdirdi. Qəbul edilmiş bəyannamədə Azərbaycanın xüsusi rolu yüksək qiymətləndirilir. Əlbəttə ki, bizim onsuz da yüksək səviyyədə olan beynəlxalq imicimizə də bu, növbəti bir töhfədir. Azərbaycan liderlik göstərib.

Eyni zamanda, biz Qoşulmama Hərəkatının üzvlərinə, ilk növbədə, müraciət edərək təklif etdik ki, BMT Baş Assambleyasının COVID-19 ilə bağlı xüsusi sessiyası keçirilsin. Bu dəstəyi biz aldıq, Qoşulmama Hərəkatının üzvləri bu təşəbbüsümüzü yekdilliklə dəstəklədilər və ondan sonra biz BMT Baş katibinə, - o, Qoşulmama Hərəkatının Zirvə görüşündə öz sözünü demişdi, müraciətini səsləndirmişdi, - müraciət etdik və indi cavab gözləyirik. Hesab edirəm ki, indiki şəraitdə dünya birliyinin bu məsələ ilə bağlı vahid mövqedən çıxış etməsi zəruridir. Bütün dünya birliyini birləşdirən təşkilat Birləşmiş Millətlər Təşkilatıdır. Ona görə biz belə təkliflə çıxış etdik və ümid edirik ki, bu, müsbət qarşılanar. İndi biz ikitərəfli və çoxtərəfli formatda məsləhətləşmələr aparırıq və əgər bu təklif qəbul olunarsa, onda, bax, dediyim kimi, bir daha Azərbaycanın təşəbbüsü ilə dünya birliyi birləşib bu məsələ ilə bağlı öz sözünü deyəcək.

Çünki burada əsas məsələ özünə qapanmamaqdır. Biz yaxşı xatırlayırıq ki, pandemiyanın ilkin dövründə bəzi ölkələr özlərinə qapandılar. Bəzi ölkələr humanitar məsələlərdə özlərini elə apardılar ki, sonra yəqin utandılar. Bəzi ölkələr təşviş içində idi. Biz bəzən vəsaitlə aldığımız tibbi avadanlığı gətirməkdə çətinlik çəkirdik. Ona görə indiki şəraitdə hesab edirəm ki, dünya birliyi vahid mövqedən çıxış etməlidir. Bununla paralel olaraq, biz fərdi qaydada 14 ölkəyə humanitar yardım göstərdik. O ölkələr ki, buna onların ehtiyacı var və bizə müraciət etmişdilər. Eyni zamanda, biz Ümumdünya Səhiyyə Təşkilatı xətti ilə əlavə 15 ölkəyə humanitar yardım göstəririk. İndi bu proses gedir. Bu 15 ölkə Qoşulmama Hərəkatına üzv olan ölkələrdir. Ölkələrin siyahısı Ümumdünya Səhiyyə Təşkilatı və Azərbaycan tərəfindən razılaşdırılıb. Burada əsas meyar ən çox ehtiyacı olan ölkələrdir.

Bildiyiniz kimi, Ümumdünya Səhiyyə Təşkilatına Azərbaycan fərdi qaydada iki dəfə ianə veribdir və beləliklə, Azərbaycan beynəlxalq təşkilat vasitəsilə 29 ölkəyə humanitar yardım göstərib. Mən indi bu məsələ ilə bağlı dünyada gedən prosesləri, mənzərəni izləyirəm və tam məsuliyyətlə deyə bilərəm ki, pandemiya dövründə ən çox humanitar yardım göstərən ölkələrdən biri Azərbaycandır. Bax, budur bizim ölkəmiz, budur müstəqilliyimizin üstünlükləri. Kimin ağlına gələ bilərdi ki, Azərbaycan bu bəla ilə təkbaşına, bu cür, belə məharətlə, peşəkarlıqla, təmkinlə, ləyaqətlə bacara bilsin. Hələ bəlkə 10 il, 20 il bundan əvvəl kimin ağlına gələrdi ki, Azərbaycan 30-a yaxın ölkəyə humanitar yardım göstərə bilər. O dövrdəki bəzi ölkələr indi o biri ölkələrə çatacaq humanitar yardımı da özlərinə, necə deyərlər, götürmüşdülər. Ona görə biz həm ölkə daxilində, həm beynəlxalq müstəvidə düzgün, ləyaqətli siyasət aparırıq. Ona görə bizə olan rəğbət və hörmət gündən-günə artır.

Bütün bu məsələlərlə yanaşı, bir daha bundan sonrakı dövrə qayıtmaq istəyirəm. Azərbaycan vətəndaşları bizim bütün addımlarımızı dəstəkləyirlər. Halbuki aydın məsələdir ki, pandemiya insanların normal həyat tərzinə təsir edib, mənfi təsir edib. İnsanlar öyrəşdikləri həyat tərzindən müəyyən dərəcədə uzaqlaşıblar. Məhdudiyyətlər var, eyni zamanda, artıq yeni məhdudiyyətlər də ortaya qoyulur. Ancaq Azərbaycan vətəndaşları bilirlər ki, bu məhdudiyyətlərin əsas səbəbi insanları qorumaqdır. İnsanları qorumaq üçün biz bütün addımları atacağıq. Ona görə bir daha Azərbaycan vətəndaşlarına bu dövr ərzində göstərdiyi dəstəyə görə, göstərdiyi həmrəyliyə görə təşəkkür edirəm. Eyni zamanda, bütün vətəndaşları bir daha böyük məsuliyyətə və nizam-intizama çağırıram. Biz birlik nümayiş etdirmişik və bundan sonra da nümayiş etdirəcəyik. Təsadüfi deyil ki, pandemiya dövründə "Biz birlikdə güclüyük!" birləşdirici şüar olmuşdur.

**AZƏRTAC-ın materialları əsasında**

# "Müstəqil Azərbaycan dövləti bizim ən böyük sərvətimizdir!"

*Azadlıq və müstəqillik həm hər bir ölkə vətəndaşı, həm də xalqlar, millətlər üçün ən müqəddəs və şirin nemət hesab olunur. Dövlət müstəqilliyimiz 70 ildən sonra bərpa olundu. Ulu Öndərin dediyi kimi, azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onları əbədi, dönməz, sarsılmaz etmək bir o qədər də mürəkkəb və ağır məsələdir. Qüdrətli və möhkəm dövlət olmadan azadlığı və müstəqilliyi qazanmaq mümkünsüzdür.*





1993-cü ilin 15 iyun günü xalqımız üçün çox əzizdir. Vətənini, xalqını sevən həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələrin şahidi olan insanlar üçün 15 iyun əsl qurtuluş tarixidir. Bu tarixi yaradan Azərbaycanın inkişafında, müstəqilliyinin qazanılmasında, xoş, firavan gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqa arxa-dayaq olan - ümummilli liderimiz Heydər Əliyevdir. Həmin tarixi hadisələrdən bizi 27 illik zaman kəsiyi ayırır...

Ulu Öndərin apardığı daxili və xarici siyasət Azərbaycan xalqının ümidlərini artırırdı. Yalnız dahi rəhbər Heydər Əliyevin siyasi təcrübəsi, dövləti idarəetmə bacarığı, iradəsi ölkəni və xalqı xaosdan, dövlətçiliyimizi məhv olmaq təhlükəsindən xilas edə bilərdi. Azərbaycan xalqı bu mürəkkəb geosiyasi şəraitdə böyük siyasi xadimin hakimiyyətə gəlməsini qətiyyətlə tələb edərək öz tarixi seçimini etdi. Ulu Öndərin ölkə rəhbərliyinə qayıdışından sonra hər şeydən öncə ölkədə əmin-amanlığın inkişafı üçün geniş imkanlar yarandı. Qısa zamanda cinayətkarlığın qarşısı tam alındı, bütün qanunsuz silahlı dəstələr ləğv edildi. Yaranan ictimai sabitlik, cəbhədə əldə olunan atəşkəs respublikanın inkişaf kursunu müəyyən etməyə imkan verdi. Bu da dövlət quruculuğu prosesinin uğurla aparılmasına geniş şərait yaratdı. Ulu Öndərin siyasi təcrübəsi suverenliyimizin qorunub saxlanılmasında, müstəqil dövlət təsisatlarının yaranmasında və dövlət quruculuğu prosesində böyük rol oynadı. Müstəqil Azərbaycanın beynəlxalq hüquq normalarına uyğun ilk Konstitusiyası referendum yolu ilə qəbul edildi. Bir sözlə, yalnız ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra milli-mənəvi sərvətlərimizə, dilimizə, dinimizə, tarixi irsimizə qayğı dövlət siyasəti səviyyəsinə qaldırıldı.

Müstəqil dövlətimizin keçdiyi inkişaf yolu göstərdi ki, ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdış günü 15 İyun - Azərbaycan xalqının Milli Qurtuluş Günü kimi tarixə qızıl hərflərlə yazıldı. Ulu öndər Heydər Əliyevin müdrikliyi, böyük siyasi təcrübəsi sayəsində Azərbaycan dövləti məhv olmaq, siyasi xəritədən silinmək təhlükəsindən, xalqımız vətəndaş müharibəsindən, yenidən hansısa xarici qüvvələrin təsiri altına düşməkdən xilas edildi. Ölkəmizin tarixi inkişafı tamamilə yeni, işıqlı və perspektivli gələcəyə istiqamətləndi.

Böyük siyasi xadim Heydər Əliyevin qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, demokratiya, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni milli ideologiyanın əsası qoyuldu. İndi regionda heç bir layihə Azərbaycanın razılığı və ya iştirakı olmadan həyata keçə bilməz. Azərbaycan bu illərdə dünyanın aparıcı dövlətləri ilə sıx münasibətlər qurdu, ölkəmiz Avropa Şurasına və bir sıra beynəlxalq təşkilatlara tamhüquqlu üzv qəbul olundu. Üçrəngli bayrağımız beynəlxalq təşkilatlarda dalğalandı. Bu, bir xalqın, bir dövlətin məhz ulu öndər Heydər Əliyev zəhməti ilə başa gələn qələbəsi idi. Bu qələbənin əsası məhz 15 iyunda qoyuldu.

Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra ordu quruculuğunda da əsaslı dönüş yarandı. Azərbaycan Ordusunda baş alıb gedən neqativ halların, fərariliyin aradan qaldırılması, vahid komandanlıq prinsipinin bərqərar edilməsi, şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin yüksəldilməsi, maddi-texniki təminatın gücləndirilməsi, bir sözlə, dünya standartlarına cavab verən müasir ordunun formalaşdırılması istiqamətində köklü tədbirlər həyata keçirilməyə başlandı.

Azərbaycan əsgərinin xoş sorağı bu gün beynəlxalq sülhməramlı əməliyyatlardan gəlir. İraq və Kosovoda əmin-amanlıq yaradılması üçün vaxtilə həmin bölgələrə ezam olunan bölmələrimiz üzərlərinə düşən missiyanı ləyaqətlə və məharətlə yerinə yetirirdilər. Hazırda Azərbaycan Ordusunun bölmələri Əfqanıstanda sülhməramlı əməliyyatlarda uğurla iştirak edir. Azərbaycan Ordusunun qazandığı bütün nailiyyət və qələbələr Ümummilli Liderin vaxtilə ordu quruculuğu sahəsində apardığı köklü islahatların nəticəsidir.

Dövləti olmayan xalq ölümə məhkumdur. Dövlətçilik xalqın "ölüm, ya olum" məsələsidir. Ümummilli lider Heydər Əliyevin xalqımız və tariximiz qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtarmasında idi. Dövlətimizin qorunub saxlanılması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması və qurtuluş deməkdir. Dəfələrlə söylənildiyi kimi, ulu öndər Heydər Əliyev sübut etdi ki, Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir.

Ümummilli Liderimiz dünyaya onu da sübut etməyi bacardı ki, Azərbaycanın qədim dövlətçilik ənənəsi var. Həmin ənənəni bu gün uğurla davam etdirən, Heydər Əliyev kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdir.

Ulu Öndərin əsasını qoyduğu və bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən davam etdirilən dövlət quruculuğu və iqtisadi inkişaf strategiyası özünün parlaq bəhrəsini verməkdədir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

Ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra dövləti, dövlətçiliyi inkişaf etdirən dəyərli və işıqlı gələcəyə ünvanlanan səmərəli islahatlara başlanıldı, ordu quruculuğu istiqamətində böyük uğurlara gətirib çıxaran çox inamlı və qətiyyətli addımlar atıldı.

1993-cü il noyabrın 2-də Ulu Öndər radio və televiziya ilə çıxış edərək ölkədə yaranmış vəziyyətlə bağlı Azərbaycan xalqına müraciət etdi. Bu tarixi müraciətində Ümummilli Lider Vətən təəssübü çəkənləri dövlətçiliyin müdafiəsinə səslədi. Qısa müddət ərzində yüzlərlə, minlərlə vətənpərvər gənc ordu sıralarına axışdı. Onlar qısa müddət ərzində təlim keçərək torpaqlarımızın müdafiəsində dayandılar. Formalaşmaqda olan Azərbaycan Ordusunun bölmələri bir sıra bölgələrdə uğurlu döyüş əməliyyatları həyata keçirərək düşməni dayandırdı və geri otuzdurdu. İşğalda olan neçə-neçə kənd və qəsəbələrimiz ermənilərdən azad olundu. Müharibədə nəzərəçarpacaq ciddi dönüş yarandı, zabit və əsgərlərin qələbə ovqatı, döyüş əzmi daha da artdı.

Ulu öndər Heydər Əliyev dövlətimizin imicini beynəlxalq aləmdə yüksəltdikdən sonra Silahlı Qüvvələrimizin də dünya ölkələrinin ordularına inteqrasiya etməsinə şərait yarandı. Həyata keçirilən uğurlu islahatlar nəticəsində ordumuzun beynəlxalq əlaqələri qısa vaxt ərzində möhkəmləndi və sevindirici haldır ki, bu proses indi də sürətlə davam etməkdədir. Ümummilli Liderimizin təşəbbüsü ilə Azərbaycan Ordusunun tərkibində yaranan və formalaşan sülhməramlı taborun şəxsi heyəti Kosovoda, Əfqanıstanda və İraqda sülhün qorunmasında fəal iştirak edib. Bu gün Azərbaycanın əsgər və zabitləri yenə də Əfqanıstan torpağında sülhyaratma əməliyyatlarında xidmətlərini uğurla davam etdirirlər.

Ümummilli Liderimizin layiqli davamçısı möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında son illərdə ordu quruculuğunda irimiqyaslı uğurlu islahatlar həyata keçirilir. Ordumuzun döyüş hazırlığının daha da artırılması məqsədilə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin verdiyi bütün əmr və tapşırıqlar Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən daim diqqət mərkəzində saxlanılır, yüksək səviyyədə icra olunur. Gündən-günə gücünü, qüdrətini artıran ordumuz torpaqlarımızı erməni işğalçılarından azad etməyə hər an hazır və qadirdir. Müntəzəm olaraq keçirilən təlimlər ordumuzun gücünü, qüdrətini, zabit və əsgərlərin döyüş hazırlığını, ustalıq dərəcəsini daim artırır. Bütün bunlar isə sabahkı böyük qələbələrimizdən, uğurlarımızdan xəbər verir.

Azərbaycanda ordu quruculuğu prosesi bu gün də dövlət səviyyəsində, dövlətin qayğısı ilə davam etməkdədir. Bu mühümdən-mühüm iş şəxsən Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi və nəzarəti altında həyata keçirilir və gündən-günə orduya yeni-yeni uğurlar qazandırır. Dünyanın inkişaf etmiş ölkələrinin hərbi quruculuq təcrübəsi dərindən öyrənilir və müasir tələblərə cavab verən ordu yaratmaq istiqamətində səmərəli islahatlar uğurla davam etdirilir. Belə səmərəli islahatlar ordu quruculuğunun artan xətlə və sürətli inkişafına zəmin yaradır. Azərbaycan Ordusu yeni inkişaf mərhələsinə qədəm qoyub və yüksək hərbi nizam-intizamın saxlanılması və möhkəmləndirilməsi istiqamətində çox mühüm, zəruri tədbirlər həyata keçirilir. Demək olar ki, bütün dünya dövlətləri Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın regionun ən qüdrətli ordusuna malik olduğunu etiraf edir. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin gündən-günə yaxşılaşdırılması, müasir silahlarla təminatı istiqamətində aparılan müsbət nəticə verən islahatlar sayəsində Azərbaycan Ordusu dünyanın ən güclü orduları ilə bir cərgədə öz layiqli yerini tutub.

2016-cı ilin Aprel döyüşləri və 2018-ci ilin Günnüt əməliyyatı bir daha sübut etdi ki, ordu quruculuğu istiqamətində aparılan dövlət siyasəti Azərbaycan Ordusunun möhkəmlənməsinə və peşəkarlığının artmasına xidmət edir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev çıxışlarında və görüşlərində dəfələrlə vurğulayıb ki, ordu quruculuğu, müdafiə potensialının möhkəmlənməsi və güclü ordunun yaranması dövlət üçün, hökumət üçün və hər bir vətəndaş üçün bir nömrəli vəzifədir. Biz bu istiqamətdə öz səylərimizi davam etdirərək, hər an öz doğma torpaqlarımızı işğalçı qüvvələrdən hərbi yolla azad etməyə hazır olmalıyıq.

Hər bir xalqın xilaskar ordusu ilə öyünməyə, qürur duymağa mənəvi haqqı var. Xalqımız da öz doğma ordusu ilə öyünüb fəxr edir. Əminliklə qeyd etməliyik ki, zabit və əsgərlərimiz döyüşlərdə böyük hünər və rəşadət göstərərək, işğal altında olan torpaqlarımızı erməni qəsbkarlarından azad edəcəkdir.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə naziri yeni hərbi şəhərcik kompleksinin açılışında iştirak edib



*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş hazırlığının yüksəldilməsi və sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə əlaqədar göstərişinə əsasən yeni inşa edilən hərbi hissənin açılışı olub.*

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun və nazirliyin digər rəhbər heyətinin iştirakı ilə hərbi şəhərcik ərazisindəki qərargah, yeməkxana, tibb məntəqəsi, əsgər yataqxanası, avtomobil parkı, müxtəlif təyinatlı döyüş silah və sursatlarının saxlanması üçün anbarlar, eləcə də digər infrastruktur obyektlərinə baxış keçirilib.

Hərbi şəhərcik ərazisində hərbi qulluqçuların ailələri üçün nəzərdə tutulmuş yeni binanın açılış mərasimi olub.

Ailələri təbrik edən Müdafiə naziri bu yaxınlarda Hövsan qəsəbəsində hərbi qulluqçular üçün istifadəyə verilən daimi mənzillərin və "Qobu Park-3" yaşayış kompleksinin açılışında Ali Baş Komandanın iştirakını qeyd edərək bu istiqamətdə görülən kompleks tədbirlərin ölkə başçısının Azərbaycan Ordusuna göstərdiyi diqqət və qayğının bariz nümunəsi olduğunu xüsusi vurğulayıb. Nazir bu hərbi hissənin açılışını Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması istiqamətində atılan növbəti addım olduğunu qeyd edib.

Silahlı Qüvvələrin Ali Baş Komandanının qayğısı nəticəsində son illərdə planlı şəkildə hərbi qulluqçuların daimi və xidməti mənzillərlə təmin olunduğunu bildirən Müdafiə naziri bu işlərin davamlı olacağını diqqətə çatdırıb.

Nazir bildirib ki, cari ildə müxtəlif bölgələrdə, xüsusilə cəbhəboyu zonada yerləşən bir sıra hərbi hissədə 250-dən artıq xidməti mənzil istifadəyə verilib. Bu ilin sonunadək isə daha 200-dək xidməti mənzilin tikintisinin sona çatdırılması planlaşdırılır.



Yeni bina ilə tanışlıq zamanı məlumat verilib ki, beşmərtəbəli bina tam təmirli 3 otaqlı 60 mənzildən ibarətdir və bütün kommunikasiya xətləri ilə təchiz olunub.

Bildirilib ki, bina üçün nasosxana, hovuz, yarımstansiya tikilib, qaz, su, işıq sayğacları qoyulub, mənzillər mətbəx və digər mebel dəsti ilə təmin edilib. Ərazi hasara alınıb, asfalt döşənib, uşaqlar üçün şəhərcik salınıb, idman qurğuları ilə təmin olunub, avtodayanacaq üçün yer ayrılıb, su təmizləyici qurğu quraşdırılıb və yaşıllaşdırma işləri görülüb. Hərbi qulluqçuların ailə üzvlərinin səmərəli istirahəti üçün lazımi şərait yaradılıb.



Mənzillə təmin olunan hərbi qulluqçular göstərilən qayğıya görə Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə öz minnətdarlıqlarını bildiriblər.

Mənzillərin açarları hərbi qulluqçulara təqdim edildikdən sonra Müdafiə Nazirliyinin rəhbərliyi yaradılan şəraitlə tanış olub və ailələrin qayğıları ilə maraqlanıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**15 iyun 2020-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Xocavənd rayonunun işğal altında olan Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

**16 iyun 2020-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonunun Cil kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Ermənistanın torpaqlarımızın işğalının nəticələrini möhkəmlətməyə xidmət edən hər hansı bir layihəsi təcavüz aktının davamıdır

Avropa Parlamentinin Cənubi Qafqaz ölkələri üzrə Parlament Əməkdaşlıq Komitəsinin həmsədri və Azərbaycan və Ermənistan üzrə daimi məruzəçilərinin iyunun 10-da qəbul etdiyi bəyanat vacib bir sənəddir. Sözügedən bəyanat Dağlıq Qarabağın və onun ətrafında olan ərazilərin Ermənistan tərəfindən qeyri-qanuni işğalından bəhs edir və Ermənistandan Dağlıq Qarabağa yeni yolun çəkilməsini qarşılıqlı inama, sülhə və barışığa əngəl yaradacaq bir addım kimi qiymətləndirir.

Bu fikirləri AZƏRTAC-a Milli Məclisin deputatı Nigar Arpadarai deyib.

Deputat bildirib ki, Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalının nəticələrini birbaşa və ya dolayı yolla möhkəmləndirməyə xidmət edən hər hansı bir layihə və ya təşəbbüs beynəlxalq hüquqa görə təcavüz aktının davamıdır. Ermənistanın atdığı bu addım onun həqiqi niyyətini ifşa edir və göstərir ki, erməni tərəfinin sülh danışıqlarında iştirakı yalnız dünyanın diqqətini davam edən işğaldan yayındırmaq məqsədi daşıyır.

"Həmkarlarımı, diplomatlarımızı, diasporumuzu, əlaqədar dövlət orqanlarını və bütövlükdə ölkəmizin fəal ictimaiyyətini mümkün qədər çox sayda ölkənin parlamentləri və hökumətləri tərəfindən oxşar bəyanatların verilməsinin təmin olunması istiqamətində səy göstərməyə çağırıram", - deyə deputat qeyd edib.

# "Ermənistan danışıqlar aparmaqdan boyun qaçırmaqla münaqişənin həlli prosesinin qarşısını alır"

Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan silahlı qüvvələrinin mövcudluğu regionun təhlükəsizliyinə ən böyük təhdid kimi qalmaqdadır. BMT-nin Baş Katibinin və Al-nin Ali nümayəndəsinin qlobal atəşkəs ilə bağlı müraciətinə baxmayaraq, Ermənistan silahlı qüvvələri atəşkəs rejimini pozmaqda davam edir, həmçinin gərginliyi artırmağa və münaqişənin siyasi həllinə mane olmaq üçün hər cür səy göstərir. Ermənistan özünü "demokratiya" kimi təqdim edir, lakin hələ də öz doğma torpaqlarından zorla qovulmuş yüz minlərlə azərbaycanlının insan hüquqlarını pozmağa davam edir.

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Şərq Tərəfdaşlığı üzrə Xarici İşlər nazirlərinin videokonfrans formatında keçirilən görüşündəki çıxışında bildirib.

"Bütün dünyanın COVID-19 ilə mübarizəyə səfərbər olunduğu dövrdə, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində qondarma "seçkilər" və "andiçmə" mərasimi keçirir. Danışıqlar aparmaq və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə əməl etməkdən boyun qaçırmaqla Ermənistan münaqişənin həlli prosesinin qarşısını alır. Beləliklə, Ermənistan ŞT-nin sabitlik və rifah kimi fundamental prinsiplərinə xələl gətirir", - deyə nazir vurğulayıb.

# Heydər Əliyev adına Hərbi Liseyin kursantları üçün buraxılış imtahanı keçirilib

*Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə Heydər Əliyev adına Hərbi Liseyin sonuncu kursunda təhsil alan kursantlar üçün buraxılış imtahanı keçirilib.*



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, bir mərhələdə keçirilən imtahanda liseyin 188 kursantı iştirak edib. Kursantlar binaya daxil olarkən buraxılış vərəqəsini, şəxsiyyəti təsdiq edən sənədin əslini, sağlamlıq haqqında bəyannaməni təqdim ediblər.

İmtahanın təşkili və gedişi zamanı karantin rejiminin tələblərinə ciddi riayət olunub.

Yüksək səviyyədə təşkilatçılıq məqsədilə imtahandan 1 gün əvvəl nəzarətçilərlə videobağlantı vasitəsilə seminar keçirilib.

Qeyd edək ki, məktəb binasındakı 16 zalda keçirilən imtahanların idarə olunmasına 1 ümumi imtahan rəhbəri, 2 imtahan rəhbəri, 21 nəzarətçi-müəllim cəlb edilib. Sualları cavablandırmaq üçün kursantlara 3 saat vaxt ayrılıb.

İmtahan zamanı kursantlara Azərbaycan dili fənni üzrə 30, riyaziyyat fənni üzrə 25, xarici dildən isə 30 olmaqla, ümumilikdə, 85 sual təqdim edilib. Qəbul imtahanında abituriyentlərin toplaya biləcəyi maksimal göstərici hər fənn üzrə 100 bal olmaqla, cəmi 300 baldır.

# "Ermənistan ilə Azərbaycanın Dağlıq Qarabağ bölgəsi arasında əlaqə yaradacaq magistral yolun tikintisi beynəlxalq hüququn pozulmasıdır"

*İyunun 10-da Avropa Parlamentinin Azərbaycan, Gürcüstan və Ermənistan üzrə Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Mariya Kalyurand, Azərbaycan üzrə məruzəçisi Jelena Zavko, Ermənistan üzrə məruzəçisi Trayan Basesku Ermənistan ilə Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsi arasında əlaqə yaradacaq magistral yolun tikintisi ilə bağlı birgə bəyanat yayıblar.*

AZƏRTAC Avropa Parlamentinin saytına istinadla xəbər verir ki, bəyanatda bu qərarın Azərbaycanın müvafiq orqanları ilə razılaşdırılmadan verildiyi və bunun beynəlxalq hüququn pozulması olduğu qeyd edilir.

"Biz ATƏT-in Minsk Qrupu həmsədrlərinin səylərinə və onların 2009-cu ildə təsdiqlənən Əsas Prinsiplərinə dəstəyimizi bir daha bəyan edirik. Bu vasitəçiliyin uğur qazanması üçün biz Ermənistan və Azərbaycan hakimiyyətlərini Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində münaqişənin sülh yolu ilə həllinə dair danışıqlara öz öhdəliklərini gücləndirməyə çağırırıq", - deyə bəyanatda vurğulanır.

# Belarusda Azərbaycanın Milli Qəhrəmanı Anatoli Davidoviçin xatirəsi yad edilib

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun göstərişinə əsasən, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Belarus Respublikasındakı hərbi attaşelik aparatının nümayəndələri tərəfindən əslən belaruslu, Azərbaycanın Milli Qəhrəmanı mayor Anatoli Davidoviçin şəhid olmasının növbəti ildönümündə məzarı ziyarət olunub.*



Ölkəmizin ərazi bütövlüyü uğrunda Ermənistan silahlı qüvvələrinə qarşı gedən döyüşlərdə, 1992-ci ilin iyun ayının 13-də həlak olan qəhrəmanın məzarının üzərinə Müdafiə naziri adından əklil qoyulub, xatirəsi ehtiramla yad edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mərasimdə A.Davidoviçin gənclik və xidmət illəri barədə danışılıb, onun göstərdiyi şücaət xatırlanıb.

Vurğulanıb ki, mayor A.Davidoviçin qəhrəmanlığı Azərbaycan və Belarus xalqları arasında dostluq və qardaşlıq münasibətlərini daha da möhkəmləndirib, xatirəsi isə hər iki ölkədə daim ehtiramla yad olunur.

Sonra hərbi attaşelik aparatının əməkdaşları qəhrəmanın anası Kima Andreyevnaya Müdafiə naziri adından baş sağlığı verərək onun ölkə rəhbərliyinin daim diqqət mərkəzində olduğunu xüsusi vurğulayıblar.

Kima Andreyevna da öz növbəsində oğlunun xatirəsinə olan ehtirama və özünə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə, Müdafiə Nazirliyinin rəhbərliyinə, ölkəmizin Belarusdakı hərbi attaşelik aparatının əməkdaşlarına minnətdarlığını bildirib.

# Azərbaycan Ordusunun parad heyəti Moskvaya yola düşüb

İyunun 24-də keçiriləcək Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 75 illiyinə həsr olunmuş hərbi paradda iştirak edəcək Azərbaycan Ordusunun 75 hərbi qulluqçusundan ibarət parad heyəti Moskva şəhərinə yola düşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Bakıda yekunlaşan hazırlıq məşqlərini hərbi qulluqçularımız digər ölkələrin parad heyətləri ilə Moskvada davam etdirəcəklər.

Qeyd edək ki, hərbi paradda hərbçilərimiz ölkəmizin istehsalı olan silahlarla təntənəli keçidi edəcəklər.



# Ermənistanın Müdafiə naziri Davit Tonoyan dalana dirənib

Ermənistan Müdafiə naziri Davit Tonoyanın "ordu quruculuğu konsepsiyası" başlığı altında səsləndirdiyi fikirlər bir daha onu göstərir ki, bu, onun sonuncu çırpıntılarıdır. Bu zaman belə bir sual yaranır: D.Tonoyanı belə əsassız fikirlər səsləndirməyə, fərziyyələr yürütməyə nə vadar edir? O, Ermənistan ordusunda köklü dəyişikliklərdən və müasir ordunun formalaşmasından danışarkən erməni xalqının ona inanacağınımı düşünür? Məgər Tonoyanın son zamanlar orduda ölüm hallarının artmasından və əsgərlər arasında münasibətlərin tənzimlənməsi üçün "oğru qanunlarının" hökm sürməsindən xəbəri yoxdur? Görünür, D.Tonoyan müasir və inkişaf etmiş ordu quruculuğu anlayışından bəhs edərkən yuxarıda qeyd etdiyimiz amilləri də "nəzərə alıb".

Bunu AZƏRTAC-a açıqlamasında siyasi şərhçi-icmalçı Ehtiram Aşırlı deyib.

E.Aşırlı bildirib ki, D.Tonoyanın səsləndirdiyi fikirlər arasında diqqətçəkən amillərdən biri də Ermənistan silahlı qüvvələrinin modernləşdirilməsi planlarının, döyüş bacarıqlarının təkmilləşdirilməsinə dair məqamların qeyd olunmasıdır. İşğalçı ölkənin Müdafiə nazirinin fikirlərinə cavab olaraq erməni KİV-də partlamış təkərlərlə, nasaz və yararsız halda olan silah və döyüş texnikalarının şəkillərinin dərc edildiyini xatırlatmaq yerinə düşər. Sıradan çıxmış həmin bu texnikalar sonradan təmir edilib, rəngi dəyişdirildikdən sonra D.Tonoyan tərəfindən qururla yeni texnika adı ilə N.Paşinyana təqdim edildiyini də ayrıca vurğulamaq lazımdır. D.Tonoyanın fəxrlə təqdim etdiyi həmin texnikalar "sözsüz ki, erməni ordusunun döyüş bacarıqlarının təkmilləşdirilməsinə öz müstəsna xidmətlərini göstərəcək". D.Tonoyanın yeni texniki vasitələrdən, döyüş tapşırığının təşkili üçün təkmilləşdirilmiş sistem və metodlardan fəal istifadə anlayışı əslində ötən əsrin 70-80-ci illərinin hərbi texnikalarını xalqa "sıramaqdan" başqa bir şey deyil.

"Görünən odur ki, Ermənistan Müdafiə nazirinin "ordu quruculuğu konsepsiyası" adı altında təqdim etdiyi plagiat fikirlər toplusunun arxasına sığınaraq səsləndirdiyi fikirlər tezliklə vəzifəsini itirmək qorxusundan irəli gəlir. Vəzifədən getdikdən sonra fəaliyyəti dövründə korrupsiya yolu ilə topladığı sərvətini qoruyub saxlamaq və başqaları kimi məhkəmə salonlarında, həbsxana yollarında qalmamaq üçün Tonoyan bütün imkanlarını səfərbər edib. Dalana dirənən, yolun sonuna çatan D.Tonoyan artıq növbənin onda olduğunu anlayır və son kartlarını oynamaqla aqibətini cüzi də olsa yüngülləşdirməyə çalışır", - deyə E.Aşırlı qeyd edib.

# “Qələbədə bizim də töhfəmiz olacaq”

## Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının yaradılmasından 26 il keçir



*Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı fəaliyyətə 1994-cü il iyunun 16-da başlayıb. Müasir ordu quruculuğunun ideoloji sahələrindən biri olan Hərbi Nəşriyyat sovet ordusundan milli orduya təhvil verilən "Xəzərin keşiyində" qəzetinə məxsus mətbəənin bazasında yaradıldı və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə fəaliyyətə başladı.*

Xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda ordu quruculuğu istiqamətində aparılan geniş işlər Hərbi Nəşriyyatın da fəaliyyətinin nizama salınmasına şərait yaratdı. Xidməti nəşrlərin buraxılışı üzrə nəşriyyat fəaliyyətinin hüquqi əsasını Azərbaycan Respublikasının Konstitusiyası, "Nəşriyyat işi haqqında", "Kütləvi informasiya vasitələri haqqında", "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanunları və nəşriyyat fəaliyyəti sahəsində digər normativ hüquqi aktlar təşkil edir.

Azərbaycan Ordusunda xidməti nəşrlərin buraxılışı üzrə nəşriyyatın fəaliyyətinin əsas tapşırığı Azərbaycan Ordusunun hərbi idarəetmə orqanları, müəssisə, hərbi hissə və təşkilatların keyfiyyətli və müasir tələblərə cavab verən nəşriyyat məhsullarına olan ehtiyacını vaxtında və tam şəkildə ödəməkdir.

Hərbi Nəşriyyatın ordumuzun şəxsi heyətinin maariflənməsində, zəruri ədəbiyyatlarla, əyani təbliğat vasitələri ilə təmin olunmasında mühüm xidmətləri vardır.

Xidməti nəşrlərin - dərs vəsaitlərinin, təlimatların, jurnalların, qəzetlərin, blankların yüksək poliqrafik səviyyədə çap olunub, ordumuzun şəxsi heyətinə çatdırılması üçün mümkün olan bütün vasitələrdən istifadə edilir. 13 ildir bu cür peşəkar və mehriban kollektivdə çalışan mülki işçi Səadət Cəfərova hərbçilərlə birlikdə çalışmaqdan məmnunluğunu bildirdi. "Bu gün ofset sexinin çapçı köməkçisi vəzifəsində çalışıram. Müharibə şəraitində biz də üzərimizə düşən vəzifələrin öhdəsindən layiqli şəkildə gəlməliyik. Hərbi Nəşriyyatda çap olunan tədris vəsaitlərinin Vətənimizin keşiyində dayanan oğullarımızın döyüş qabiliyyətinin artırılmasında müstəsna rolu vardır. İnanıram ki, yüksək döyüş hazırlığına malik olan əsgərlərimiz Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad edəcəkdir."

Ehtiyatda olan baş gizir Əliəhməd Şirvanov bildirdi ki, Qarabağ müharibəsi veteranıdır. Öyrəndim ki, işlədiyi müddətdə peşəkarlığı ilə yuxarı rəhbərliyin hörmət və rəğbətini qazanıb. 15 ildir Hərbi Nəşriyyatda işləyir. "İllər ərzində nəşr olunan sənədlərin yüksək səviyyədə hazırlanmasında kollektivimizin rolu böyükdür. Bundan sonra da vəzifə borcumuzu layiqincə yerinə yetirəcək, ordumuzun şəxsi heyətinin zəruri çap məhsulları ilə təmin olunmasında səylərimizi artıracağıq. Bu, Ali Baş Komandanımızın rəhbərliyi altında torpaqlarımızın azad olunmasına bizim töhfəmiz olacaq."

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycanın Xarici İşlər Nazirliyi Ermənistan XİN-in Şaumyan rayonu ilə bağlı bəyanatına cavab verib

*Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva KİV-ə açıqlamasında Ermənistan XİN-in Azərbaycanın keçmiş Şaumyan rayonu ilə bağlı bəyanatını şərh edib.*

AZƏRTAC xəbər verir ki, Leyla Abdullayevanın açıqlamasında deyilir: "Ermənistan XİN-in Azərbaycanın keçmiş Şaumyan rayonunun guya ki, işğal olunmasına dair bəyanatı təcavüzkar Ermənistanın Azərbaycana qarşı olan əsassız ərazi iddialarının ölkəmizin hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayonu ilə məhdudlaşmadığını aşkar şəkildə göstərir.

Azərbaycanın keçmiş Şaumyan rayonu ilk dəfə 1930-cu ildə keçmiş Gəncə qəzasının ərazisində əsasən ermənilərin məskunlaşdığı ərazilərin daxil olduğu Şaumyan kənd rayonu inzibati vahidi şəklində yaradılıb. Bu rayon heç vaxt keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil olmayıb. 1991-ci ildə Azərbaycan Respublikasının Ali Sovetinin qərarı ilə rayon ləğv edilərək Qasım İsmayılov rayonunun tərkibinə daxil edilib, sonradan isə onun tarixi adı qaytarılaraq Goranboy adlandırılıb.

Ermənistan XİN-in Azərbaycanı öz beynəlxalq tanınmış ərazilərini işğal etməkdə ittiham etməsi gülünc olduğu qədər, yumşaq dillə desək anlaşılmazlıq doğurur. Xatırladırıq ki, hələ 2015-ci ildə Avropa İnsan Hüquqları Məhkəməsinin "Sarqsyan Azərbaycana qarşı" adlı qərarının 30-cu paraqrafında məhkəmə qeyd edib ki, keçmiş Şaumyan rayonunun (Goranboy) "DQR tərəfindən ərazisinin bir hissəsi olduğu iddia edilir...". Təqdim olunan dəlilləri nəzərdən keçirən məhkəmə 134 və 139-cu paraqraflarda müəyyən edib ki, bu rayon Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisidir və beləliklə, Ermənistanın iddiası rədd edilir.

Ermənistan XİN-in Azərbaycanın Dağlıq Qarabağ və ətraf bölgələrinin hərbi işğalına, bu ərazilərdəki yüz minlərlə azərbaycanlının fundamental hüquqlarının pozuntusuna görə məhz Ermənistanın tam məsuliyyət daşıdığı məsələdən beynəlxalq ictimaiyyəti yayındırmaq məqsədilə verdiyi bu bəyanat işğalçı ölkənin faktların saxtalaşdırılması üzrə çirkin təcrübəsidir.

İşğalçı ölkənin bu bəyanatı Ermənistan rəhbərliyinin, əslində, öz əhalisini sülhə necə hazırladığını bütün dünyaya nümayiş etdirdi. Ümumilikdə qeyd etmək istərdim ki, Ermənistan XİN-in son bəyanatı onsuz da gərgin olan vəziyyətin daha da gərginləşməsinə yönəldilib. Onların bunu bilərəkdən, yaxud Ermənistan-Azərbaycan münaqişəsinin həlli kontekstində hazırda açıq-aydın təklikdə qaldıqları üçün çıxılmaz vəziyyətdən irəli gələrək etdiklərini söyləmək çətindir. Ermənistan tərəfini nəinki dünyada dəstəkləyən, hətta onların mövqeyinə anlayış göstərən nə bir dövlət, nə də bir qüvvə var.

Bəlkə də Ermənistan XİN-in son açıqlamasına öz ölkələrindəki mürəkkəb daxili vəziyyət təsir göstərib və bu yolla onlar öz xarakterlərinin ağırlığını göstərmək istəyirlər. Ancaq məntiqi o olardı ki, Ermənistan tərəfi bizimlə masa arxasında oturaraq, bütün səviyyələrdə dəfələrlə bəyan edilən təkliflər əsasında danışıqları yekunlaşdırsın".

# Azərbaycan sülhməramlılarının bir qrupu Əfqanıstana yola salınıb



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, NATO-nun "Qətiyyətli Dəstək" missiyasının tərkibində fəaliyyət göstərmək məqsədilə Azərbaycan Ordusunun bir qrup sülhməramlısı plana uyğun olaraq rotasiya qaydasında Əfqanıstana yola salınıb.

Azərbaycan Ordusunun Əfqanıstandakı sülhməramlı missiyası 2002-ci il noyabrın 20-dən başlayıb.

# AAHM-in kursantları döyüş atışları keçirib

*Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin (AAHM) tədris planı və proqramına uyğun olaraq hərbi poliqonda kursantların intensiv hazırlığı həyata keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, dərslərdən əvvəl təlim sahələrinin rəhbərləri hazırlıq məşqlərinə cəlb olunan heyəti təhlükəsizlik qaydaları, atışın şərtləri və digər tələblərlə tanış ediblər.

Kursantlar zirehli texnikadan istifadə vərdişlərini təkmilləşdirib, şərti düşmən hədəflərinin atəşlə məhv edilməsi çalışmalarını və digər praktiki tapşırıqları yerinə yetiriblər.

*Ovqat*

# “Xalqın, dövlətin adına xeyirli niyyət həmişə gerçəkləşir”



Nə müddətdi könlümün kürlüyünü kürüyə bilmirəm. Bu kürlük ön xətdə, səngərlərdə döyüş növbətçiliyi aparanların əhatəsində kürünəcək; bu kürlük müharibə səbəbindən yaranmış ön xətdə, səngərdə döyüş növbətçiliyi aparanlara sevgidəndi. Bu sevgi Vətənə sevgimizin döyüş əzminə, qələbə ruhuna bələd olduğumuz əsgərlərə ehtiramdı. Bu əzmin, bu ruhun qalibiyyəti ən müasir silahlarla, qurğularla silahlanmış ordumuzun şəxsi heyətinin yüksək döyüş və mənəvi-psixoloji hazırlığına söykənib. İctimaiyyət bu əzmin dönməzliyini, bu ruhun qətiyyətini orduya inamın, güvəncin ifadəsi bilir. Bu inam, bu güvənc Ali Baş Komandanın döyüş əmrinin qələbəylə tamamlanacağına inamdı.

1993-cü ilin dekabrında Murovdağdaydım. Əsgərlərimiz “N” yüksəkliyində döyüş növbətçiliyini dəyişdirirdi. Qarda, buzda, soyuqda, sazaqda o hündürlüyə kəndirdən istifadə edilməklə çıxmaq təhlükəsini görürdüm. Büruzə verməsəm də bir qədər həyəcanlanmışdım. Mayor Qurban Qurbanov qürurla əsgərlərə baxıb demişdi:

- Azərbaycan əsgəri bilir ki, döyüş növbətçiliyi döyüş hazırlığının davamıdı, döyüş hazırlığı Ali Baş Komandanın əmrini qələbəylə tamamlamaq üçündü - Vətən üçündü. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qürurla dediyi "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır" kəlamı Azərbaycan əsgərinin yerinə yetirəcəyi müqəddəs vəzifənin mahiyyətini müəyyənləşdirir: Güclü ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir.

Mayor Qurban Qurbanovun inamla dediklərini mayor Bəhram Ləzimovun fikri tamamlamışdı:

- Döyüş növbətçiliyinə əzmlə gedən əsgərlərimiz döyüş əmri veriləndə əzmlə, qələbə ruhuyla döyüşəcəklər də, qələbə qazanacaqlar da.

Zabitlərin əsgərlərə güvənci də, döyüş növbətçiliyinin mahiyyətinin bu səviyyədə dərki də könlümü telləndirmişdi. Bir neçə saat əvvəl digər mövqedə baş leytenant Sahib Aslanovun tavar sazda havalandırdığı "Ruhani"nin ovqatıyla döyüş növbətçiliyinə gedən əsgərlərimizə bir də baxmışdım. Əsgərlərin döyüş növbətçiliyinə gedişində bayaq "Sarıtel"in xallarına-güllərinə sarılan qoşmanın mahiyyətini görmüşdüm: Vətən, sənə qurban olum!..

Xatırlatdıqlarımı eşidincə Qurban üzü Kəlbəcərə sarı baxmışdı:

- Ali Baş Komandanın döyüş əmrinin ilk günü buraları da "Arxada Vətən durur" deyə anacağıq. Böyük Qələbə qazanacağıq və ondan sonra Azərbaycanın dövlət sərhədlərində dayanan əsgərlər Azərbaycanın sərhəd bütövlüyünü qoruyacaqlar.

Düşüncələrimdə nizama düzülən misralar əsən qanadlı yellərə qarışmışdı:

Bu ağ qarda, göy buzda
Əsgərin döyüş əzmi
Ruhumuzla tən durur.
Öndə düşməndi,
ancaq
Arxada Vətən durur...

Mahiyyəti bu söhbətin davamı olası söhbəti eşitməyin təşnəsindəyəm. O söhbət açılan səhərin yaxasına can atan mehlə süslənəcək. Salam-əleykdən sağollaşanacan əsgərlərimizin gözəl düşüncələrinin zəmanətiylə döyüş və mənəvi-psixoloji hazırlıqdan danışacağıq, zabitlərin xatirələri yenə əsgərlərin döyüş əzminin, qələbə ruhunun işığına qarışacaq. Bu düşüncələr içində əsgərlərin səngərin o üzünə yönələn baxışları baxışlarımı özünə çəkəcək. "Əsgərlərin, bu əsgərlərin timsalında Azərbaycan Ordusunun bütün əsgərlərinin döyüş növbətçiliyini Böyük Qələbəyə aparacaq yolun başlanğıcı bilirəm", - deyəcəm. Zabitlər də, əsgərlər də məmnunluqla göy üzünə baxacaq. "Belə könüləyatımlı havada belə könüləyatımlı söhbəti yaxın vaxtlarda Cıdır düzündə davam etdirərik" - zabitlərdən biri mütləq bu məzmunlu nəsə deyəcək...

Ön xətdə, səngərlərdə bütün söhbətlər döyüş əzmiylə, qələbə ruhuyla tamamlanır. Söhbətin mahiyyətində əsgərlərin düşüncələriylə düşüncələrin arasında yaranan tarazlığı, mütənasibliyi, uyğunluğu, oxşarlığı, hərdən eyniliyi məntiqi baxımdan məmləkətin inamla, əminliklə gözlədiyi bir günün dan yeri bilirsən. Və bu bənzəyiş sənin də, avtomatın qundağını sıxan əsgərlərin də, baxışları döyüş növbətçiliyinə gedənlərin keçib getdiyi cığıra sarılır. Həsəddimi, dost sevgisi olaraq baxış uğurlamasıdımı? Hər nədirsə, bu baxışların mahiyyəti döyüş növbətçiliyinin mahiyyətini nurlandırır. Bu mahiyyət döyüş növbətçiliyindən qayıtmış əsgərin də, günün nizam qaydalarına uyğun olaraq bir azdan, vaxtı çatanda döyüş növbətçiliyinə gedəcək əsgərin də könlünə yatır. Mənim könlüm bu könüllərin pərvanəsinə dönməyə meyillənir. Vətəni bunca sevdikləri üçün, Vətənə bunca sədaqətlə xidmət etdikləri üçün, döyüş növbətçiliyini səngərdən Böyük Qələbəyə aparacaq yolun başlanğıcı bildikləri üçün, ...

Ötən il Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanov adına postda döyüş növbətçiliyndən qayıtmış əsgərlə kəlmələşirdim. Hiss edilməsi olduqca çətin olan bir duyğusallıq çökmüşdü baxışlarına. Eyni məzmunlu baxışlarım onun baxışlarında dolaşıq düşən anlarda avtomatı köksünə sıxmışdı:

- Hər dəfə döyüş növbətçiliyinə gedəndə elə bilirik ki, Çingiz də bizimlədi. Elə bilirik ki, postda yan-yana dayanmışıq və bu güc, bu qüdrət qarşı tərəfin altını-üstünə çevirməyə qadirdi. Yəni, döyüş növbətçiliyi hər əsgərin ruhunun qanadına dönür, döyüş əzminin, qələbə ruhunun yolgöstərəni olur.

Əsgərin belə bir gərəkli düşüncəsini düşüncələrimə hopdurduğum anlarda zabit Rüstəm Məmmədov Azərbaycan əsgərinin mənəvi-psixoloji hazırlığını müəyyənləşdirən bir mətləbə toxunmuşdu:

- Döyüş növbətçiliyinə gedən əsgərlər də, döyüş növbətçiliyindən qayıdan əsgərlər də Çingizin barelyefi qarşısında ayaq saxlayır, müəyyən mənada, onun daş baxışlarıyla kəlmələşirlər. O daş baxışlar döyüş növbətçiliyinə gedənlərə xeyir-duaya, döyüş növbətçiliyindən qayıdanlara təşəkkürə dönür. Bu səbəbdən də hər əsgər "Çingizin döyüş yolunu biz qələbəylə tamamlayacağıq!" - deyir...

"Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun obeliskdən dikələn baxışları da siz əsgərlərə ünvanlanan, xalqın, dövlətin adına xeyirli niyyətdi və belə niyyətlər həmişə gerçəkləşir" - demişdim. Əsgərlər "Elədir" demişdilər. Bu incə, tərəddüdsüz təsdiqin işığından boylanmışdım qarşı tərəfə.

Neçə il əvvəl ön xətdən, səngərdən yazdığım bir reportajı xatırlayıram: Əsgər ürəyindən başlayır Vətən. Bu fikri bir qədər də ucadan deyəcəm, 2016-cı ilin Aprel döyüşlərini xatırlayıb da bir qədər də qürurla deyəcəm. Murovdağdan Kəlbəcərə sarı baxdığım anların kövrəkliyini silələyən inama sarılıb deyəcəm. Göy üzünün buludsuz üzünə sığal çəkən baxışların tünlüyündə şəhidlərimizin qayibanə səsini eşidəcəm: Sırada olanların özü, şəhidlərin ruhu əsgərdi. Əsgərlər duyğulanacaq, bir az əvvəl dediyim bir fikrin cazibəsində deyəcəklər: Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlayacağıq, səngərləri sərhədlərə köçürəcəyik!..

Vətəndən danışanların Vətənləşən baxışlarına sığınacam...

Neçə illər əvvəl Novruz bayramı ərəfəsində Tərtərdə səngərli günümün bir məqamını unutmamışam.

Əsgərlərdən birinin baxışlarını kövrəklik bürümüşdü. Mənim xahişimlə Pənah əsgərdən soruşmuşdu ki, niyə qayğılısan. Əsgər dillənməmişdi. Pənahın da, mənim də, əsgər yoldaşlarının da umacaqlı baxışının inadkarlığını duyunca alnını ovuşdurmuşdu:

- Novruz bayramının əlləri o yerlərə çatmır, aranı Ermənistanın elan etmədən başladığı müharibə kəsib, müharibənin nəticəsi olan işğal kəsib. Ürəyimi üzən oralarda da belə tonqallar qalaya bilmədiyimizin sıxıntısıdı, komandir, - demişdi. - Qələbədən sonra düşmənin səngərinin yaxınlığındakı o qara daşın yan-yörəsində qalayacağımız tonqalı həm Qələbə tonqalı, həm də hansı ay olursa-olsun, Novruz tonqalı adlandıracağıq...

"Əsgərin niyyətində çırpınan qələbə niyyəti bütün əsgərlərin, ümumən Azərbaycan Ordusunun niyyətidi", - Pənah belə demişdi. Gecənin qaranlığını təkcə tonqalın şöləsi didişdirmirdi, gecəni həm də Pənahın əsgərlərə etibarının işığı didişdirirdi. Bu qoşa işığı bir azdan söküləcək dan yerinin əzəli bilmişdik. İki aydan sonra Azərbaycan Ordusu Ağdərəni azad etdi. Bu, Goranboy əməliyyatından sonra növbəti uğurlu hücum əməliyyatıydı. Qələbənin səhərisi gün Pənaha əsgərin niyyətini xatırlatdım. Yusif dedi ki, Pənahın təklifiylə Ağdərədə könül açan bir tonqal qaladıq. Bu haqda da danışacam. Əsgərlər bir daha əmin olacaqlar ki, xalqın, dövlətin adına xeyirli niyyət həmişə gerçəkləşir...

Hansı söz tərkibləriylə ifadə olunmasından asılı olmayaraq Tərtərdə, səngərdə əsgərdən eşitdiyim yaşarı niyyəti bu günün əsgərlərindən də eşidəcəm. O anların qüruru könlümüzü tellənd irəcək. "Xalqın, dövlətin adına xeyirli niyyət həmişə gerçəkləşir" deyəcəyik. Kəlmələr sona yetər-yetməz göy üzünün buludu dağılacaq. Sağollaşma ərəfəsində əsgərlər deyəcək ki, xalqın, dövlətin adına xeyirli niyyət həmişə gerçəkləşir...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Ermənistan ordusunda kriminal hadisələr

Ermənistan silahlı qüvvələrinin işğal etdiyi yaşayış məntəqələrimizdə yerləşdirilmiş bölmələrində xidmət edən zabitlərin törətdikləri cinayətlərin sayı durmadan artır.

Ermənistan ordusunun 3-cü dağ atıcı taboru komandirinin müavini David Tunyan içkili vəziyyətdə şəxsi avtomobili ilə qəza törədib.

Yol polisi əməkdaşlarının dediyinə görə, zabit D.Tunyan alkoqolun təsiri altında idarəetməni itirərək maşını körpüdən aşırıb. Qəza nəticəsində müxtəlif bədən xəsarətləri alan zabit hospitala təxliyə olunub. Həkimlər onun vəziyyətinin ağır olduğunu bildiriblər.

Faktla bağlı açılan cinayət işi araşdırılmaq üçün hərbi polisə göndərilib.

* * *

Bir neçə gün əvvəl kef məclisindən iştirak edən Ermənistan silahlı qüvvələrinin zabitləri arasında böyük qalmaqal yaşanıb. İçkili vəziyyətdə olan hərbçilərin mübahisəsi sonradan davaya çevrilib.

Artilleriya divizionunda xidmət edən zabit Aşot Xaçatryan 3-cü motoatıcı bölüyün taqım komandirini döyüb. Müxtəlif xəsarətlər alan taqım komandiri A.Xaçatryan barədə raport yazıb.

Faktla bağlı araşdırmaya nəzarət edən istintaq şöbəsinin rəis müavini Artak Voskanyan hər iki zabitlə bağlı xidmət etdiyi hərbi hissəyə sorğular göndərib.

* * *

Ermənistan silahlı qüvvələrinin hərbi hissələrindən birində xidmət edən aşpaz ərzağın keyfiyyətsiz, yeməkxananın qəzalı, mətbəx avadanlıqlarının köhnə olmasından şikayət etdiyi üçün döyülüb.

Düşmən ordusunun Madagizdə yerləşən bölmələrindən birində xidmət edən Zöhrab Gevorkyan valideynləri ilə söhbət zamanı vəziyyətin acınacaqlı olmasından və hərbi hissədə verilən qidanın keyfiyyətindən gileylənib.

Bundan narahat olan valideynlər Ermənistan Müdafiə Nazirliyinin qaynar xəttinə zəng edərək vəziyyət barədə məlumat veriblər. Bu barədə xəbər tutan komandanlıq əsgər Z.Gevorkyanın "düzgün xidmət" etməsi məqsədilə müvafiq "profilaktiki" tədbirlər görüb. Hətta hərbi aşpaz öyrədilmiş digər hərbi qulluqçular tərəfindən təhqir və təzyiqlərə məruz qalaraq vəhşicəsinə döyülüb.

* * *

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazimizdə yerləşdirilən 7-ci dağ atıcı alayında xidmət edən manqa komandiri Vahe Hambarsumyan naməlum şəxslər tərəfindən döyülüb, bədən xəsarətləri alıb.

Hərbi polis və sahə müvəkkilinin birgə araşdırması nəticəsində müəyyən edilib ki, zabit hadisə barədə dəqiq izahat verməyib. Onun döyülməsi qısqanclıq zəminində baş verib. Belə ki, manqa komandiri hadisədən bir gün əvvəl digər iki hərbçi yoldaşı ilə birlikdə qadınlarla kef məclisində olub. V.Hambarsumyan məhz həmin qonaqlıqda iştirak edən qadınlardan birinin yaxın qohumu tərəfindən döyülüb.

Hadisə ilə bağlı araşdırma davam edir.

* * *

Ermənistan silahlı qüvvələrinin işğal etdiyi yaşayış məntəqələrimizdə yerləşdirilən bölmələrindən birində nizamnamədənkənar münasibətlər zəminində növbəti cinayət hadisəsi baş verib.

İşğalçı ordunun Madagiz istiqamətində yerləşdirilən hərbi hissəsində xidmət edən əsgər Spartak Harutyunyan müxtəlif bədən xəsarətləri ilə tibb müəssisəsinə yerləşdirilib.

Faktla bağlı açılan cinayət işinin araşdırılması zamanı əsgərin döyülərək xəsarət alması məlum olub. Hadisə şahidlərinin izahatına görə S.Harutyunyanı bu hala onun xidmət yoldaşı Rubens Harutyunyan salıb.

Cinayət işi açılıb, araşdırma aparılır.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

AZƏRBAYCAN ORDUSU

*Analitik təhlil*

# Tonoyanın ordu “konsepsiyası” Ermənistan reallığından uzaq utopik fərziyyələrdir



Ermənistanın Müdafiə naziri Davit Tonoyanın müxtəlif mənbələrdən köçürərək "konsepsiya" adı altında dərc etdirdiyi və erməni ictimaiyyətinə sırıdığı fikirlərinə ən düzgün qiyməti Azərbaycan Müdafiə Nazirliyi verdi. Sözün həqiqi mənasında, açıqlamada deyildiyi kimi, "Xarici borcun dövlət büdcəsini üstələdiyi, iqtisadiyyatının isə xarici ianələr və "marafonlar"dan əldə olunan vəsaitlər hesabına formalaşdığı bir ölkənin Müdafiə nazirinin bu cür çıxış etməsi absurddur. D.Tonoyanın səsləndirdiyi fikirlərin Ermənistan miqyasında praktiki olaraq həyata keçirilməsi mümkün deyil. Buna nə Ermənistanın iqtisadiyyatı, nə də hərbi potensialı imkan vermir.

D.Tonoyanın bu addımı Nikol Paşinyanın köhnə komandanın nümayəndələrini bir-bir müxtəlif bəhanələrlə "təmizləyərək" yerinə öz adamlarını yerləşdirdiyi bir vaxtda kreslosunu saxlamaq üçün göstərilən cəhddən başqa bir şey deyil. Bir növ suda boğulanın saman çöpündən mədəd umması kimi.

Ermənistan ordusunun məqsədlərindən danışan işğalçı ölkənin Müdafiə naziri utanmazcasına bu barədə fəlsəfi fikirlər yürütməyə çalışır. Əslində, bu "konsepsiya" onun iki il bundan əvvəl Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının yığıncağında oxuduğu, başqa mənbələrdən, hərbi-strateji vəsaitlərdən oğurladığı nəzəri fərziyyələrin toplusudur. "Stroybatda" xidmət edən "dahi hərbçinin" daxili auditoriyaya sırımaq istədiyi bu fərziyyələrin Ermənistan reallığı ilə heç bir bağlılığı yoxdur.

Bir rus misalında deyilir ki, sənin fiziki, maddi və mənəvi imkanlara sığmayan planların elə arzular olaraq qalır. Yəni, Tonoyanın səsləndirdiyi fikirlər utopiyadır, xəyaldır, onun yerinə yetirə bilməyəcəyi, Ermənistan səviyyəsində reallaşdırılması mümkün olmayan planlardır. Bunu nəzərə alaraq işğalçı ölkənin Müdafiə nazirinin konsepsiyasına ciddi yanaşmaq da düzgün deyil.

İşğalçı ordunun vəzifələrinə həsr edilən fikirləri də qeyd etmək lazımdır. Ermənistan ordusunun məqsədlərindən, qarşısında duran vəzifələrindən danışan Tonoyana görə Ermənistan ordusunun qarşısına bir tapşırıq qoyulub: separatizmi dəstəkləmək, işğalçılıq siyasətini davam etdirməklə "böyük Ermənistan" xülyasını gerçəkləşdirmək. Ancaq nə az, nə çox, cəmi 500 il yubanıblar. Çünki müasir zamanda nə dünya qanunları, nə beynəlxalq hüququn norma və prinsipləri, nə də xalqımız işğal edilmiş ərazilərimizdə ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək. Əminəm ki, hər cəhətdən düşmən üzərində üstünlüyünü qoruyub saxlayan və daha da yüksəldən ordumuz düşmənə yetərli dərslər verərək yerini göstərəcəkdir. Necə ki, bunu 2016-cı ilin Aprel döyüşlərində və 2018-ci ilin Günnüt əməliyyatında etmişdir.

"Tonoyan konsepsiyasında" gülünc olan bir də odur ki, 2019-cu ildə ordularında qazanılan "uğurlardan, alınan təyyarələrdən, artırılan əmək haqqından" ağız dolusu danışarkən nədənsə unudur ki, məhz elə erməni mütəxəssislərin gəldiyi nəticəyə və deputatların təqdim etdiyi hesabata görə 2019-cu il işğalçı ordu üçün ən biabırçı, ən uğursuz, ən çox qeyri-döyüş itkiləri, cinayət hadisələri ilə, intiharlarla, fərariliklə zəngin bir il oldu. Yəqin ki, bunu Paşinyan da, erməni xalqı da gözəl bilir.

Tonoyanın çıxışında "maraqlı" məqamlardan biri də bizi özlərinə hədəf gördüklərini bəyan etməsi, eyni zamanda, işğal edilmiş ərazilərimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələri bölmələrinin fəaliyyətindən dəm vurması, burada yerləşdirilən işğalçı bölmələrin xidmətinə qiymət verməsidir. Bu isə öz növbəsində Ermənistanın Azərbaycan ərazilərini işğal etməsinin bir daha rəsmi şəkildə etiraf olunmasıdır. Bu məqam da diqqətdən kənarda qalmamalıdır. Tonoyanın təqdim etdiyi "konsepsiyanı" oxuyarkən belə bir təəssürat da yaranır ki, o, özü də yazılardan bixəbərdir. Yəqin ki, köməkçilərinin oradan-buradan, dərsliklərdən köçürüb təqdim etdiyi yazını başı şəxsi biznesinə qarışan D.Tonoyanın oxumağa vaxtı belə olmayıb. Belə olmasaydı, fikirlərdə bu qədər sıçrayışlar gözə dəyməzdi. Yeni silah-sursatdan, tankdan, topdan danışan müəllif elə oradaca da yeməyin keyfiyyətində qazandığı yeniliklərdən danışır. Necə deyərlər, heç hənanın yeridir. Yemək-içmək hara, tank-tüfəng hara.

Yeni silahların alınmasından danışan Tonoyan texnikanın optimallığından, istifadədə və texniki xidmətdə effektivliyindən, daha çox yerli istehsala üstünlük vermək lazım olduğundan bəhs etməklə ustalıqla və hiyləgərliklə əsas məsələni ört-basdır etməyə çalışır. Bu dedikləri sadəcə uşaq bəhanələridir. Necə deyərlər, pişiyin əli ətə çatmayanda iyindən xoşlanmadığını deyir. Əlacları qalır kustar üsulla hazırlanan "super müasir erməni texnologiyasına".

Amma reallıq ondan ibarətdir ki, Azərbaycan Ordusu üzərində üstünlük əldə etmək üçün yox, sadəcə ona bir az da olsa yaxınlaşmaq üçün belə, ermənilərə lazım olan silah sistemlərini, raket komplekslərini, aviasiya vasitələrini və digər hərbi məhsulları əldə etmək üçün, nəinki dünyada dilənçiliklə pul yığmaqla məşğul olan, ianələr toplayan erməni diasporuna, hətta Ermənistan dövlətinin belə iqtisadi gücü, potensialı yetərli deyil. Onlar çox dəqiq bilirlər ki, Azərbaycanın təkcə hərbi xərcləri Ermənistanın dövlət büdcəsindən çox üstündür.

Təmas xəttində erməni hərbi kəşfiyyatının bizim qüvvələrə nəzarət etməsindən, Hava Hücumundan Müdafiə Qüvvələrinin döyüş növbətçiliyindən, səsdən sürətli uçmağa nail olan pilotlardan, Ermənistan silahlı qüvvələrinin modernləşdirilməsi planlarından, döyüş bacarıqlarının təkmilləşdirilməsindən, yeni texniki vasitələrdən, yeni yanaşma metodlarından, döyüş tapşırığının təşkili üçün avtomatlaşdırılmış müasir idarəetmə sistemlərindən bəh-bəhlə danışan Tonoyanın yazdıqlarını oxuduqda aydın olur ki, o, özü belə yazdığı fərziyyələrə, uydurduğu yeniliklərə inanır və başqalarının da buna inanacağını düşünür. Amma deyirlər, sən saydığını say, gör fələk nə sayır. Belə ki, 2016-cı ilin Aprel döyüşlərində və 2018-ci ilin Günnüt əməliyyatında Azərbaycan Ordusu Tonoyanın təriflədiyi erməni ordusunun necə "qüdrətli olduğunu" ona və dünyaya nümayiş etdirdi. Bu hadisələr zamanı D.Tonoyan nazir müavini, daha sonra isə nazir kreslosunda əyləşmişdi.

"Konsepsiya"da Tonoyan özü də boynuna alır ki, Ermənistan ordusunda illərlə yığılıb qalmış, kök salmış problemləri həll etmək üçün hazırkı sistem gücsüzdür, əlacsızdır. Onda belə bir sual doğur. İllərdir özü bu qurumda rəhbər vəzifədə "işləyən" "dahi strateq" niyə bu problemlərin həlli ilə məşğul olmayıb, nöqsanları aradan qaldırmayıb?! Əksinə, o özü bu nöqsanların yığılıb qalmasına və kök salmasına imkan verib, şərait yaradıb?! Yəqin ki, bunu ondan N.Paşinyanın komandası və erməni cəmiyyəti bir gün soruşacaq. Görəsən, indi yeni metodlar, yeni yanaşmalar, yeni qüvvələr olmadan bunları həll etməyin mümkünsüzlüyünü deyən Tonoyan onda nəyin və kimin arxasında gizlənəcək.

Ancaq insafən desək, hər bayramda, əlamətdar gündə ölkənin hərbi-siyasi rəhbərliyinin təkrar-təkrar səsləndirdikləri bu fikirləri dinləməkdən erməni xalqı da artıq boğaza yığılıb. Bu gün qonşu ölkə cəmiyyəti real olaraq anlayır və başa düşür ki, halva-halva deməklə ağız şirin olmur. Deyirlər, danışırlar, təklif edirlər, lakin nöqsanlar və problemlər yerində sayaraq qalır. Çünki cinayətkar, korrupsioner rejim mümkün olan hər şeyi söküb, satıb, yeyib, üstündən də su içib. Erməni xalqına, erməni ordusuna isə ancaq problemlər, nöqsanlar qalıb.

Bu gün yazdığı "konsepsiyanın" arxasına sığınaraq kreslosunu qorumaq üçün dəridən-qabıqdan çıxan D.Tonoyan özü də bilir ki, sadaladığı problemlərin həllinə onun özünün gücü və ümumilikdə ölkəsinin potensialı yetərli deyildir. Odur ki, hələ uzun illər onun dilə gətirdiyi ideyalar elə realizə olunmayan xülyalar, sadə xalqa, daxili auditoriyaya hesablanmış növbəti nağıl olaraq qalacaqdır.

**Sözardı:** "Mauqli" nağılındakı qocalıb, haldan düşmüş canavarın vida mahnısı təsiri bağışlayan "Tonoyan konsepsiyasının" sonlarında torbada gizlədilən pişiyin qulaqları görünməyə başlayır. Ermənistan ordusunun "gücündən, qüdrətindən, bacarığından, peşəkarlığından" ağzı köpüklənənədək utanmadan danışan Tonoyan sonda ən asan və sərfəli yolu təklif edir: Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının qanadları altına sığınmaq. Görəsən, Ermənistan ordusu bu qədər güclüdürsə, onda bu təşkilatın kölgəsində olmaq belə bir "qüdrətli ordunun" nəyinə gərək? Haqsız yerə dirəşmək və əliboş blef etmək də erməni xislətinin bir xüsusiyyətidir ki, Tonoyan da bundan məharətlə bəhrələndi.

**İsa İSMAYILOV,**
**hərbi jurnalist**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyə qırıcıları İraqın şimalındakı 81 PKK hədəfini dağıdıb



Türkiyə Silahlı Qüvvələri İraqın şimalında "Pençe-Kartal" şərti adı altında geniş antiterror əməliyyatı keçirib. PKK terror təşkilatının Sincar, Karacak, Kandil, Zap, Avaşin Basyan, Gara və Hakurk bölgələrindəki 81 hədəfi bir-bir vurularaq darmadağın edilib.

Bu barədə Milli Müdafiə Nazirliyi məlumatında bildirilir ki, nazir Hulusi Akar ordu generalları ilə birlikdə əməliyyat qərargahından prosesin icrasına nəzarət edib. Hərbi Hava Qüvvələrinin qırıcıları ilə bərabər hərbi təyinatlı pilotsuz aparatlar da əməliyyata cəlb olunub.

Əməliyyatın uğurlu keçdiyini bildirən nazir Hulusi Akar prosesdə iştirak edən pilotları təbrik edib.

### ABŞ-ın İraqdakı hərbi bazası raket atəşinə tutulub



Ötən gecə ABŞ-ın İraqdakı hərbi bazası yenə raket atəşinə məruz qalıb.

İraq mətbuatı xəbər verir ki, Bağdad yaxınlığında yerləşən hərbi bazaya iki raket atılıb. Nəticədə hərbi bazadakı bəzi tikililərə ziyan dəyib. Atəş zamanı bazada olan ABŞ əsgərlərindən heç kim xəsarət almayıb.

İraqın xüsusi xidmət orqanları dərhal hadisə yerinə gəliblər. ABŞ və İraq mütəxəssisləri birgə araşdırma aparırlar.

Cari ildə ABŞ-ın İraqdakı hərbi bazalarına və səfirliyinə bir neçə dəfə hücum olub.

### Türkiyənin “Bayraktar TB2” pilotsuz aparatı 200 min saat uçuş həyata keçirib



Türkiyənin milli istehsalı olan "Bayraktar TB2" silahlı pilotsuz uçuş aparatı (SİHA) 200 min saat uçuş həyata keçirib.

"Bayraktar TB2" 2014-cü ildə Türkiyə Milli Müdafiə Nazirliyinin aviasiya arsenalına daxil edilib. Ötən illərdə böyük uğurlar qazanan bu aparatın təkmilləşdirilməsi istiqamətində də önəmli addımlar atılıb. "Bayraktar TB2" 2019-cu ildə Küveytdə keçirilən aviasiya sərgisində fasiləsiz olaraq 27 saat 3 dəqiqə uçuş edərək rekord qazanıb. Bundan başqa, sözügedən aparat cari il yanvarın 24-də Türkiyənin Elazığ bölgəsində baş verən dağıdıcı zəlzələnin miqyasını öyrənmək üçün 25 dəqiqəlik uçuş əsasında mühüm məlumatlar toplayıb. "Bayraktar TB2" aparatı Türkiyə təhlükəsizlik qüvvələrinin terrorçuların yerlərinin müəyyənləşdirməsi işində mühüm rol oynayacaq.

### Pakistanın Xayber-Paxtunxva əyalətində iki hərbçi terrorun qurbanı olub




Pakistanın Xayber-Paxtunxva əyalətinin Əfqanıstanla həmsərhəd Şimali Vəziristan dairəsində əldəqayırma bombanın partlaması azı iki hərbçinin həyatına son qoyub. Patrul maşınına yerləşdirilən bombanın partlaması nəticəsində daha iki əsgər yaralanıb. Hadisə ilə bağlı cinayət işi açılıb, istintaq aparılır.

**AZƏRTAC-ın materialları əsasında**

Baş gizir Orucov Kamran Aydın oğluna 2014-cü ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 388
Nüsxə 3960